# Şəmkirdə "Heydər Əliyev siyasəti: müasir dövlət quruculuğu" mövzusunda konfrans keçirilmişdir

Şəmkirdə "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə "Heydər Əliyev siyasəti: müasir dövlət quruculuğu" adlı konfrans keçirilmişdir.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Şəmkir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad etmiş, məzarları üzərinə gül dəstələri düzmüşlər. Sonra Şəmkir Heydər Əliyev Mərkəzində Ulu Öndərin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini əks etdirən eksponat və fotostendlərə baxış keçirilmişdir.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlamışdır. Çıxış edən Baş Prokurorluğun idarə rəisi Ceyhun Kazımov müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin mövcud iqtisadi inkişafın və hərtərəfli tərəqqinin əldə olunmasındakı rolundan danışmışdır. Ulu Öndərin müasir dövlət quruculuğu siyasətindən söhbət açan C.Kazımov uğurlu siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini qeyd etmişdir.

Çıxış edən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev isə bu tədbirin Şəmkir şəhərində keçirilməsindən məmnunluğunu ifadə etmiş və bildirmişdir ki, ömürboyu xalqına sədaqətlə xidmət edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın keçmişini yaşadan və gələcəyini müəyyən edən şəxsiyyət olmuşdur. Bu gün qalib və qüdrətli Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edir, möhtəşəm uğurlar qazanır.

Konfransda həmçinin Milli Məclisin deputatı Nurlan Həsənov, Şəmkir rayon prokuroru Azər Hətəmov, Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi Anar Eyvazov və digərləri Heydər Əliyevin xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi mövzularında çıxış etmişlər.

Sonda Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 3 sentyabr.- S.11.